Azərbaycan Respublikasının Standartlaşdırma,
Metrologiya və Patent üzrə Dövlət Komitəsinin
21 fevral 2013-cü il tarixli, 004 nömrəli Qərarı
ilə təsdiq edilmişdir

5 nömrəli əlavə

# Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti üzrə inzibati reqlament

## 1 Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu

**1.2. Elektron xidmətin məzmunu:** Bu xidmət Azərbaycan Respublikasında əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində (bundan sonra - reyestr) qeydiyyatı üçün müraciətin və sənədlərin elektron şəkildə qəbulunu əhatə edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsi;
- "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 18.35.1-ci və 18.35.2-ci maddəsi;
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1999-cu il 30 avqust tarixli, 143 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydası"nın 5-ci və 6-cı bəndləri;
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1999-cu il 30 avqust tarixli, 143 nömrəli Qərarı ilə təsdiq edilmiş "Coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydası"nın 5-ci və 6-cı bəndləri;
- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli Əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli Əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 29.5-ci bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə).

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bu sahədə göstərilən elektron xidmət qismən avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** 10 iş günü ərzində.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Əmtəə nişanı və ya coğrafi göstəricinin qeydə alınması və bu barədə sənədin (şəhadətnamənin) verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişli

**2.2.1. xidmət üzrə ödənişin hüquqi əsası:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əmtəə nişanı və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün rüsumlar aşağıdakı kimi müəyyənləşdirilmişdir:

18.35. Qeydə alınması, məlumatın dərci və şəhadətnamənin verilməsi üçün:

18.35.1. əmtəə nişanı üçün - 45 manat;

18.35.2. coğrafi göstərici üçün - 30 manat;

**2.2.2.** Elektron xidməti göstərən dövlət qurumu elektron xidmətin göstərilməsi üçün ödənişin real vaxt rejimində elektron formada həyata keçirilməsi imkanını təmin etməlidir.

**Əmtəə nişanının və ya coğrafi göstəricinin reyestrdə qeydiyyatı üçün dövlət rüsumunun ödənilməsi üçün hesab:**

Adı: Dövlət Xəzinədarlığı Agentliyi
VÖEN: 1401555071
Kodu: 210005
M/h: AZ41NABZ01360100000000003944
SWIFT BIK: CTREAZ22
Adı: AR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi
Hesab: 2428501
VÖEN: 1400386271
Büdcə təsnifatının kodu: 142215
Büdcə səviyyəsinin kodu: 7

Ödənişin təyinatı hissəsində "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun yuxarıda qeyd olunan maddələrindən biri göstərilməli və maddəyə uyğun olaraq təyinat qeyd olunmalıdır.

**2.3. Elektron xidmətin istifadəçiləri:** hüquqi və fiziki şəxslər, patent müvəkkilləri, xarici hüquqi və fiziki şəxslər isə yalnız patent müvəkkilləri vasitəsilə.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**

http://www.e-xidmet.azstand.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- http://www.e-xidmet.azstand.gov.az
- azs@azstand.gov.az
- tel: (012) 449 99 59

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması**

**2.6.1. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda:** Elektron xidmətdən istifadə etmək üçün şəxs fiziki şəxs şəxsiyyət vəsiqəsinin nömrəsini və pin kodunu daxil etməlidir.

**2.6.2. elektron xidmətin göstərilməsi üçün tələb olunan məlumatlar və sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olmadıqda:** Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır və onların skan edilmiş surəti elektron formada təqdim olunur:

- Ərizə (reqlamentə əlavə olunur);
- Hüquqi şəxslər üçün - Hüquqi şəxsin dövlət qeydiyyatı barədə şəhadətnamə.
- Dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd (Bu reqlamentin 3.2.1-ci bəndinə uyğun olaraq elektron xidmətin göstərilməsindən imtina edilmədikdə təqdim olunur).

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:**

**3.1.1. sorğunun formalaşdırılması:** Sorğu forması elektron xidmətin təqdim edildiyi internet ünvanından (reqlamentin 2.4-cü bəndi) yüklənərək doldurulur və elektron xidmət istifadəçisi (bundan sonra-istifadəçi) tərəfindən imza və ya elektron imza (olduqda) ilə (hüquqi şəxs olduqda imza və möhürlə) təsdiq edilməsindən sonra bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərin skan edilmiş surətləri ilə birlikdə həmin elektron ünvana göndərilir.

**3.1.2. sorğunun qəbulu:** Sorğu www.azstand.gov.az internet səhifəsinə daxil olduğu gün qeydə alınır və bu barədə dərhal istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. sorğunun yerinə yetirilməsindən imtina halları:**

Sənədlər bu inzibati reqlamentin 2.6-cı bəndinə uyğun təqdim edilmədikdə sorğunun yerinə yetirilməsindən imtina edilir və bu barədə sorğu qəbul edildikdən sonra 3 iş günü ərzində istifadəçinin elektron poçtuna əsaslandırılmış bildiriş göndərilir:

Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin əmtəə nişanının və ya coğrafi göstəricinin reyestrdə qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə elektron xidmət bölməsinə yenidən müraciət etməsinə mane olmur.

**3.3. Sorğunun icrası:**

**3.3.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciət və sənədlər Komitənin Elektron xidmətlər sistemi vasitəsilə qəbul edilir. Adıçəkilən sistem Komitənin İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən idarə olunur və sorğunun qəbuluna məsul bölmə olaraq cavabdehlik daşıyır. Sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq dərhal qeydiyyata alınır və baxılması üçün Patent şöbəsinə təqdim edilir. Sorğunun icrasına Patent şöbəsinin müdiri məsuliyyət daşıyır.

**3.3.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və (və ya) maksimal yerinə yetirilmə müddəti:**

Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlər sistemə daxil olduğu andan etibarən icraya yönləndirilməsi barədə istifadəçiyə dərhal bildiriş göndərilir. Ən geci 1 iş günü ərzində sorğu qeydə alınaraq Patent şöbəsinə icra üçün təqdim edilir. Əmtəə nişanının ilkinliyi qanunvericiliyə uyğun olaraq iddia sənədinin daxil olduğu tarixdən müəyyənləşdirilir.

Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciət və sənədlərdə aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə, onların 5 iş günü müddətində aradan qaldırılması barədə istifadəçiyə elektron poçtla dərhal bildiriş göndərilir.

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sorğuya baxılması davam edir.

Elektron xidmətlə bağlı inzibati əməliyyatların maksimal yerinə yetirilmə müddəti bu reqlamentin 1.7-ci bəndində göstərilən müddətdən artıq olmamalıdır.

**3.3.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

**3.3.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

Bu reqlamentin 3.2.1-ci bəndinə əsasən elektron xidmətin göstərilməsindən imtina edilmədikdə dövlət rüsumunun ödənilməsi zərurəti barədə istifadəçinin elektron poçtuna bildiriş göndərməklə dərhal məlumat verilir. Dövlət rüsumunun ödənilməsi barədə qəbzin skan edilmiş surəti elektron xidmətin təqdim edildiyi internet ünvanına göndərildikdən sonra əmtəə nişanı və coğrafi göstərici dövlət reyestrində qeydiyyata alınır və bu barədə istifadəçiyə dərhal məlumat verilir. Əmtəə nişanı və coğrafi göstəricinin qeydə alınması haqqında şəhadətnamə istifadəçiyə şəxsən təqdim olunur.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** kargüzarlıq;

Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi

**3.4.2. Nəzarət qaydası:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətin göstərilməsi ilə bağlı Komitənin vəzifəli şəxslərin hərəkətlərindən (qərarlarından) inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**3.5.2.** Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

**3.5.3.** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

**3.5.4.** Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

*"Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti üzrə inzibati reqlament"ə əlavə*

**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə**

**Ərizə**

Aşağıda göstərilən əmtəə nişanı və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyata alınmasını xahiş edirəm.

| | |
|---|---|
| İddia sənədinin nömrəsi | |
| Əmtəə nişanı və coğrafi göstəricinin adı | |
| İddiaçının adı: | |
| İddiaçının ünvanı: | |
| Telefon: | |
| Mobil telefon: | |
| Tarix | |
| İmza: | |

Ərizəyə aşağıdakı sənədlər əlavə edilir.

- Fiziki şəxslər üçün - Şəxsiyyət vəsiqəsinin nömrəsi və pin kodu _____________;
- Hüquqi şəxslər üçün - Hüquqi şəxsin dövlət qeydiyyatı barədə şəhadətnamə.

Qeyd: Hüquqi şəxslərin ərizəsi möhürlə təsdiq edilməlidir.